## *Sosial-iqtisadi gösətiricilərə dair:*

### *Əhalinin gəlirləri*

İlkin məlumatlara görə, 2024-cü ilin yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 5.0 faiz artaraq 19408.1 milyon manat təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən gəlirlər orta hesabla 1905.4 manat təşkil etmişdir.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 17087.0 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 4.8 faiz çox vəsait qalmışdır.




### *Demoqrafik vəziyyət*

Ölkə əhalisinin sayı ilin əvvəlindən 6769 nəfər və ya 0.1 faiz artaraq 2024-cü il martın 1-i vəziyyətinə 10187539 nəfərə çatmışdır. Əhalinin ümumi sayının 54.5 faizini şəhər, 45.5 faizini kənd sakinləri, 49.8 faizini kişilər, 50.2 faizini isə qadınlar təşkil edir.

2024-cü ilin yanvar-fevral aylarında ölkə üzrə 17081 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11.7-dən 10.2- yə düşmüşdür.

Bununla yanaşı, 2024-cü ilin yanvar-fevral aylarında 6739 nikah qeydə alınmışdır. Nikahların sayı 2023-cü ilin müvafiq dövrü (7541) ilə müqayisədə əhalinin hər 1000 nəfərinə 4.6-dan 4-ə düşmüşdür. Eyni zamanda, hesabat dövründə boşanmaların sayı əhalinin hər 1000 nəfərinə 1.8- dən 2.1-ə qalxmışdır. Belə ki, 2024-cü ilin yanvar-fevral aylarında (3456) 2023-cü ilin müvafiq dövrü (3014) ilə müqayisədə daha artıq (442) boşanma sayı qeydə alınmışdır.

### *Məşğullug və işsizlik*

2024-cü il aprelin 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5253.3 min nəfər olmuş, onlardan 4966.4 min nəfərini məşğul əhali təşkil etmişdir.2024-cü

il martın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1727.2 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 899.7 min nəfər, qeyri-dövlət sektorunda isə 827.5 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 31.4 min nəfər, qeyri neft-qaz sektorunda isə 1695.8 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22.5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6.4 faizi tikintidə, 7.2 faizi emal sənayesində, 3.3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1.9 faizi mədənçıxarma sənayesində, 2.0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1.7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

2024-cü ilin yanvar-fevral aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 148,9 saat təşkil etmişdir.

***Əmək haqqı***

2024-cü ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 10.8 faiz artaraq 946.8 manat təşkil etmişdir. Əmək haqqı neft-qaz sektorunda 3438.3 manat, qeyri neft-qaz sektorunda 899.7 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 901.8 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 996.5 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

